Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

EU4Environment
Şərq Tərəfdaşlığı Ölkələrində Yaşıl İqtisadiyyat

# Dairəvi İqtisadiyyat praktikada: Azərbaycanda maraqlı tərəflər Abşeron-Xızı və Bakı İqtisadi Rayonları üçün sənaye tullantılarının xəritələşdirilməsi hesabatını təsdiqləmək üçün toplaşır

[onlayn] Bakı, Azərbaycan, 6 Oktyabr 2022

UNIDO və Avropa İttifaqının dəstəyi ilə Abşeron-Xızı və Bakı İqtisadi Rayonları İstehsalat Tullantılarının Xəritələşdirilməsinə (İTX) fokuslanan iddialı pilot çalışma sayəsində resurslardan səmərəli istifadə etmək yolundadır.

Cümə axşamı 6 oktyabr 2022-ci il tarixdə, Abşeron-Xızı və Bakı İqtisadi Rayonlarını təmsil edən maraqlı tərəflər, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin nümayəndələri, UNIDO və məsləhətçi ACE Group Consultants şirkətinin ekspertləri, eləcə də peşəkarlar və istehsalat tullantıları mövzusu ilə maraqlanan və bu sahədə işləyən beynəlxalq ekspertlər iki regionda İTX üzrə pilot çalışmanın ilkin nəticələrini müzakirə etmək və Dairəvi İqtisadiyyata doğru bir addım kimi İTX Hesabatının təsdiqini irəliləyə aparmaq üçün onlayn formatda toplandılar.

Üç əsas mövzu (Əsas maraqlı tərəflərə Dairəvi İqtisadiyyatın əsas prinsipləri və faydalarını təqdim etmək; sənaye tullantılarının xəritələşdirilməsi çalışmasının nəticələrini müzakirə etmək və Abşeron-Xızı və Bakı iqtisadi rayonlarının istehsalat müəssisələri üçün Dairəvi İqtisadiyyat prinsiplərinin tətbiqinə dair fayda və imkanları müəyyən eetmək) ətrafında strukturlaşdırılan tədbirə həm sənaye sektoru, həm də hökumət tərəfindən maraqlı fikir və təkliflər timsalında dəyərli töhfələr verildi. Bunlar daha sonra İTX hesabatını təsdiqləmək, onun icrası üçün praktiki tövsiyələr təklif etmək, eləcə də tövsiyələri digər regionlara və digər Şərq Tərəfdaşlığı (ŞT) ölkələrinə yaymaq üçün məsləhətləşmələrə təqdim olunur.

*"Tullantıların səmərəli idarə edilməsi Azərbaycan Respublikasında 2022-2026-cı illər üçün inkişaf platformasının əsas prioritetlərindən biridir. 2026-cı ilədək istifadəyə yararlı tullantıların 25%-dən 15%-ə qədər azaldılması və təkrar emal oluna bilən tullantıların 20%-ə çatdırılması əsas hədəflər kimi müəyyən edilib"* – deyə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji Siyasət İdarəsinin Tullantıların İdarə Olunması şöbəsinin müdiri **cənab Mehman Nəbiyev** bildirdi.

Tullantıların idarə edilməsi tullantıların əmələ gəlməsindən onların son utilizasiyasına qədər olan prosesi idarə etmək üçün tələb olunan fəaliyyət və tədbirlərdən ibarətdir. Bura tullantıların idarə

edilməsi prosesinin və tullantılarla bağlı qanunların, texnologiyaların və iqtisadi mexanizmlərin monitorinqi və tənzimlənməsi fəaliyyətləri ilə yanaşı tullantıların toplanması, daşınması, təmizlənməsi və atılması daxildir. Tullantıların effektiv idarəetmə sistemi artan biznes dəyəri yaradır. Bu isə istehsal sənayelərinin dayanıqlılığına və iqtisadi imkanların təşviqinə töhfə verir.

Azərbaycanda İTX və Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) fəaliyyətlərinin icrası 2021-ci ilin may ayında UNIDO ilə şirkətlər konsorsiumundan ibarət Milli İcraçı Tərəfdaş arasında müqavilə bağlandıqdan sonra başlamışdır. Həmin tarixdən başlayaraq istehsalat tullantılarının xəritələrinin yaradılmasını dəstəkləmək üçün göstərilən səylərdə nailiyyətlərlə bərabər çətinliklərin olması da bildirilmişdir. Tullantıların xəritələşdirilməsinin ümumi məqsədi resurs səmərəliliyini və iqtisadiyyat üçün materialların və yan məhsulların dairəviliyini yaxşılaşdırmağa yönəlmiş variantlar hazırlamaq məqsədilə istehsalat müəssisələrində yaranan tullantı növlərini müəyyən etmək, qiymətləndirmək və xəritələşdirməkdir.

*“UNİDO üçün Dairəvi İqtisadiyyat müəssisələrə daha məhsuldar olmağa imkan verən aktual məsələdir. Burada sənaye tullantılarının xəritələşdirilməsi bələdiyyələrə və hökumətlərə müəssisələrin dairəvi iqtisadiyyatın təcrübələrini və prinsiplərini öz biznes fəaliyyətlərində tətbiq etməsi ilə sabahın yeni dairəvilik liderləri olmalarına necə dəstək verə biləcəklərini görməyə imkan verən mühüm alət kimi çıxış edə bilər”* – deyə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatının (UNIDO) Ətraf Mühit və Enerji Departamentində EU4Environment Layihə Meneceri **xanım Tatyana Çernyavskaya** vurğuladı.

UNIDO tərəfindən hazırlanmış İTX metodologiyası sənaye sahələrinə və yüksək dairəvilik potensialına malik olan tullantı növlərinin müəyyən edilməsinə diqqət yetirərək İTX tədqiqatını konkret coğrafi bölgələrlə məhdudlaşdırır. Bu yanaşma İTX üzrə pilot çalışmanın əhatə dairəsinin müəyyənləşdirilməsinə və bərk tullantılarla rəftarın təhlili və seçilmiş regionlarda istehsalat müəssisələrinin rolu əsasında konkret tövsiyələrin işlənib hazırlanmasına töhfə verir.

**Qısa haşiyə**
“Avropa İttifaqı Ətraf Mühit naminə” (EU4Environment) təşəbbüsü Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrinə ətraf mühitlə əlaqəli fəaliyyətləri dəstəkləməklə, yaşıl inkişaf imkanlarını nümayiş etdirməklə və açmaqla, ekoloji risk və təsirlərin daha yaxşı idarə edəcək mexanizmləri müəyyənləşdirməklə öz təbii sərvətlərini qorumağa və əhalinin ekoloji rifahını yaxşılaşdırmağa kömək etmək məqsədilə həyata keçirilir. Proqramın icra müddəti 2019-2023-cü illəri əhatə edir.

**Əlaqə**
xanım Tatyana Çernyavskaya
EU4Environment Layihə meneceri
Ətraf Mühit və Enerji Departamenti
Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı (UNIDO)
Email: T.CHERNYAVSKAYA@unido.org